# Hud surəsi; 109 (Allah təkamül inancının qarşılığını axirətdə can yandırıcı şəkildə verəcək)

**ADNAN OKTARIN KAHRAMANMARAŞ AKSU TV-DƏKI CANLI REPORTAJI (6 DEKABR 2010)**

**"Artıq onların tapınmaqda olduqları şeylər mövzusunda, əsla şübhədə olma. Daha əvvəllər, ataları necə tapınırdılarsa, onlar da ancaq elə tapınırlar. Şübhəsiz Biz, paylarını azaltmadan onlara ödəyəcək olanlarıq". (Hud surəsi, 109)**

Quran hər zaman keçərli olan bir Kitabdır. Qiyamətə qədər keçərlidir.

Baxırıq darvinizm, materializm var. Bu inancın mənşəyinə baxırıq. Bunlar nəyə inanırlar? Atomun ağıl sahibi olduğuna inanırlar, yəni hər atomun Allah kimi ağıllı olduğuna inanırlar. (Allahı tənzih edərik) Yəni belə bir batil dindir. Və o ağılla atomların bir araya gəldiyinə, şüursuz atomların, görməyən atomların bir araya gəlib gözü meydana gətirdiyinə, eşitməyən atomların bir araya gəlib eşitməni meydana gətirdiyinə, dadmağı bilməyən atomların dadmağı meydana gətirdiyinə, ağılı bilməyən atomların da bir araya gəlib ağlı meydana gətirdiyinə inanan bir batil dindir; darvinizm, materializm. Nə zamandan bəri? Şumerlərdən bəri və daha da qədim. Qədim Misirdə şumerlərdən qalan bir bütpərəstlik dinidir. "Daha əvvəllər, ataları necə tapınırdılarsa", necə darvinist və materialist düşüncələr içindədirsələr.

Məsələn, Firon nə deyirdi? "Nilin palçığından canlılar təsadüflər nəticəsində meydana gəldi. İnsanlar və bitkilər, heyvanlar hamısı Nilin palçıqlarından meydana gəldi" deyirdi. Şumerlər nə deyirdi? Bütün canlılar, heyvanlar, bitkilər təsadüflər nəticəsində və təkamüllə meydana gəldi deyirdilər. İndikilər nə deyirlər? Eynisini deyirlər. Allah nə deyir? "Daha əvvəllər ataları necə tapınırdılarsa, onlar da ancaq belə tapınırlar" Allah eynisini edirlər deyir. "Şübhəsiz Biz, paylarını azaltmadan onlara ödəyəcək olanlarıq", madam darvinist bir dünyaya inanırsan. Madam mutasiyalarla olduğuna inanırsan. Allah o inancına uyğun bir cəhənnəm yaradır. Təkamül necə olarmış? Mutasiya necə olarmış? Təsadüf necə olarmış? Orada görmüş olurlar. Yəni əzik-büzük hər şey insanların əleyhinə, hər şey anormal, hər şey can yandırıcı. Qarşılığı budur, inşaAllah. Təbii ki, təsadüf deyilən də bir şey yoxdur. Təsadüfü də Allah yaradar.

https://www.harunyahya.info/az/meqaleler/hud-suresi-109-allah-tekamul-inancinin-qarsiligini-axiretde-can-yandirici-sekilde-verecek